# Kredo

TARİX İNSANIN ƏQİDƏ VƏ İNAM UĞRUNDA MÜBARİZƏSİDİR!

Müstəqil ictimai-siyasi, publisistik qəzet №06 (1300) 11 fevral 2026-cı il Qiyməti 1 manat

Qəzet 1999-cu ilin oktyabrından çıxır


# UCA İNSAN, BÖYÜK ALİM

## *Ustadım, elmi rəhbərim, Əməkdar elm xadimi, professor N.Şəmsizadə haqqında xatirə düşüncələrim*




*Məlahət QƏDİROVA,*
*filologiya elmləri üzrə fəlsəfə doktoru*


Uca insan, böyük alim - bu başlığı seçməyim təsadüfi deyil. Tanrı ona xüsusi bir görkəm, boy-buxun bəxş etmişdi. Ancaq düşünürəm ki, insanın ucalığı böy-buxunu ilə ölçülmür. İnsan mənən uca olursa, şəxsiyyət olur. Şəxsiyyət isə həmişə işığının parlaqlığı ilə seçilir. Onun şəxsiyyətinə xüsusi məzmun bəxş edən bir cəhəti də böyük alim olması ilə bağlıdır.

Şübhəsiz, N.Şəmsizadə istedadlı alim idi. Çevik düşüncə imkanları qarşısına çıxan hər hansı bir müəmmanı dəqiq təhlil etməyə, düzgün nəticə çıxarmağa ona imkan verirdi. Ancaq o, həyatı boyu təkcə istedadına güvənmədi, son ana qədər elmin zəhmətini şərəflə çəkdi. Son günlərə qədər maraqlı tədqiqatlar apardı. Hətta ölümündən bir az əvvəl onun çox dəyərli monoqrafiyaları çap olundu. Beləcə, onun istedadı və zəhməti qoşa qanad kimi ruhunu pərvazlandırmışdı. Söz onun üçün xüsusi bir xammal idi. O, sözdən sanki heykəl yonurdu. Bir alim kimi böyüklüyünə məhz bu cür nail olmuşdu. Ədəbiyyatşünaslıq elmimizin zənginləşməsində onun xüsusi rolu vardı. İlk tədqiqatları Əli Nazimin ədəbiyyatnüşaslıq fəaliyyətinə həsr olunmuşdu. Onun elmi yaradıcılığında xüsusi bir obrazlılıq vardı. Təntənəli üslub onun elmi əsərlərinin cazibəsini təmin edirdi. Onu da deyim ki, elmi üslubunun şirinliyinin bir cəhəti də bədii poetik təfəkkürə malik olması ilə bağlı idi.

Şair-publisist Ə.R.Xələfli N.Şəmsizadənin məşhur «Azərbaycançılıq» adlı elmi-fəlsəfi əsəri haqqında yazarkən müəllifin belə bir fikrini misal gətirmişdi: «Azərabycan infarkt keçirmiş ürəyə bənzəyir». Bəli, bu, N.Şəmsizadənin fikri idi. 90-cı illər Azərbaycanının taleyi haqqında düşünərkən o, belə bir bənzətmə aparmalı olmuşdu. Ə.R.Xələfli məhz həmin bənzətməni yada salaraq qeyd edir ki, professorun maraqlı bənzətməsi təsadüfi düşüncənin məhsulu deyil. O, həmin obrazın arxasında N.Şəmsizadənin şairliyini və yazıçılığını da görürdü. Məhz Ə.R.Xələfli bu qənaətinə əsaslanaraq N.Şəmsizadənin bədii yaradıcılığını təhlilə cəlb etmiş, ona xüsusi açıq məktubla müraciət edərək poeziyasının və hekayələrinin



maraqlı nüanslarını oxucular üçün açmağa çalışmışdı.

N.Şəmsizadə «Tüstü» hekayəsi ilə ədəbiyyatımıza maraqlı obraz gətirib. Cəmiyyətin tüstüdən xilas olması üçün bədii düşüncəsindən gələn qənaətləri ilə yollar göstərməyə çalışıb. O, şeirlərində və hekayələrində nə qədər realist idisə, bir o qədər də romantik düşüncə imkanlarına malik idi.

Mən N.Şəmsizadənin elmi konfranslardakı, ədəbi-bədii mövzulu yığıncaqlardakı çoxlu çıxışlarını dinləmişəm. Sözün həqiqi mənasında o, natiqlik sənətini xüsusilə, mənimsəmişdi. Şöbəmizdə hərdən onun nitqləri haqqında məhdud mühitdə müzakirələr də açırdıq. Dəfələrlə deyirdim ki, o, qədim yunan natiqlərisayağı xüsusi məntiqlə danışır, fikirləri sanki zəncir kimi bir-birinə bağlanırdı. Bütün hallarda sözünün təsir gücü, nitqinin cazibəsi ona çox həssas dinləyici auditoriyası yaradırdı.

Ədəbiyyat nəzəriyyəsi şöbəsində işləyərkən çox dəyərli «Ədəbiyyat nəzəriyyəsi» adlı tədqiqat əsərini də yaratdı. Mən yaratdı deyirəm. Çünki N.Şəmsizadə demək olar ki, ədəbiyyat nəzəriyyəsinin tədqiqat mövzusu olan məsələlərə yeni baxış sərgiləyirdi. Ona görə də onun «Ədəbiyyat nəzəriyyəsi» çox orijinal alınmışdı. Onu da deyim ki. Bir qədər mistik adam idi. Qəzavü-qədərə də inanırdı. Onun bu düşüncəsi bir çox hallarda yaradıcılığına da təsirsiz ötüşmürdü. Ədəbiyyata tərif verərkən məhz mistik düşüncədən gələn mülahizələrlə fikrini formulə etmişdi.

* * *

Ötən əsrin 60-cı illərindən başlayan siyasi yumşalma mərhələsi azad düşüncə imkanlarına da geniş meydan açdı. Doğrudur, siyasi qadağaların və kommunist ieologiyasının sərt təbiəti hələ də cəmiyyətin başının üstündə Domokl qılıncı kimi hiss olunurdu. Zaman keçdikcə düşüncə sərhədlərinin genişlənməsi ayrı-ayrı sənət adamlarının, eləcə də humanitar elmlərin aparıcı qüvvələri sırasında görkəmli fikir adamlarının da arenaya çıxmasına şərait yaratdı. 80-ci illərin əvvəllərində ədəbiyyatşünaslıq elmimizin nəhəng simalarının mənəvi varisləri artıq imzaları ilə görünməkdə idi. K.Talıbzadənin, Ə.Mirəhmədovun, Y.Qarayevin və bu sıradan digər elm xadimlərinin tədqiqatçılıq üslubu, mövzuya yanaşma tərzi yeni nəsil tərəfindən mənimsənilirdi. Ədəbiyyatşünaslıq elminə gələn gənclər arasında N.Şəmsizadənin parlaq təfəkkürü daha çox diqqəti cəlb edirdi. Əlbəttə, mən bu qeydləri ədəbiyyatşünaslıq elmimizin keçdiyi yolu öyrənərkən aldığım məlumatlar əsasında yazıram.

Eşitdiyimə görə Nizaməddinin elmi düşüncə imkanlarını dövrün böyük alimləri etiraf edirmiş. N.Şəmsizadənin gələcəyi haqqında hələ gəncikən çox dəyərli fikirlər söylənmişdi. Səhv etmirəmsə, Ə.Mirəhmhdov Nizaməddinin müzakirə olunan dissertasiyasının elmi mahiyyətini yüksək qiymətləndirmiş, bəzi etirazçılara belə bir rəy də bildirmişdi: «Onun istedadını etiraf etməyə məcburam. Əgər bu dissertasiyanı geriyə qaytarsaq, o, bir aya yenisini yazıb gətirər». Zənnimcə, böyük alimin gənc ədəbiyyat xadimi haqqında bu qənaəti gələcəyi görən zəka sahibinin çox dəqiq müşahidəsidir.

Mənim 2008-ci ildən Nizaməddin Şəmsizadəni yaxından tanımaq imkanım oldu. Belə ki, mən ədəbiyyatşünaslıq elminə gəlmək niyyəti ilə tədqiqatlara başlamışdım. Ara-sıra məqalələr də yazırdım. Nəhayət, ədəbiyyat nəzəriyyəsi şöbəsində mövzu götürməli oldum: «1920-1950-ci illər Azərbaycan realist poeziyasında romantika» bu, mənim namizədlik dissertasiyası üçün mövzum idi. O vaxt N.Şəmsizadə elmi rəhbərim kimi təsdiqləndi. Nə gizlədim, həmyaşıdlarımdan bəziləri işimin çətinə düşəcəyini, incidiləcəyimi dilə gətirirdilər. Nəsə, mən belə ara-sıra səslənən qənaətlərlə razılaşmadım, heç qorxmadım da. N.Şəmsizadə ilk məsləhətlərini verəndə çox səmimi və doğmalıqla yanaşdı. Tədqiqata başlamağım üçün istiqamətləri müəyyənləşdirdi. Sonra da dedi ki, zəhmətdən qorxmasan, çalışsan, uğur səninlə olacaq. Mən də bacardığım köməyi əsirgəməyəcəm.

Beləcə, ilk təmaslar qorxu və həyəcanlarımı aradan qaldırdı. Zaman keçdikcə bir böyük qardaş, bir ata həssaslığı ilə mənə doğmalıq göstərdi.

*(Davamı 3-cü səhifədə)*

*(Əvvəli 1-ci səhifədə)*

N.Şəmsizadə çox müdrik adam idi. Hər dəfə onunla söhbətə, hər hansı bir problemli məsələni müzakirəyə gedəndə nə deyəcəyini, nəyə irad tutacağını düşünürdüm. Amma məni çox istiqanlılıqla qarşılayır, hətta mövzudan kənara çıxaraq şərq müdrikliyini, klassik ədəbiyyatımızın dəyərini itirməyən mahiyyəti haqqında söhbət açırdı. Hər dəfə bu söhbətlərdən sonra özümü mənən böyümüş kimi görürdüm.

Əlbəttə, mən Nizaməddin müəllimin həssaslığı haqqında ayrıca danışa bilərəm. Bir dəfə mövzumla bağlı bir məsələdə - əgər belə demək mümkünsə, ilişmişdim. Zəng etdim. Deyəsən, bir az telefonu gec götürdü. Salam-kəlamdan sonra məni maraqlandıran məsələni dedim. Bir-iki söz dedi. Hər halda narahatlığımı onun o bir-iki kəlməsi götürdü. Amma sonra əlavə etdi ki, indi göz həkimindəyəm. İki-üç saatdan sonra zəng edərsən.

Sonralar bildim ki, ailə üzvləri də yanında olub. Paşa Qəlbinur şərait yaradıb ki, istəyirsənsə cavab ver. O da telefona cavab verib. Ancaq kimsə deyib ki, çox vacibdir ki, indi sən bu zənlığını xeyli talamışdı. Toplumun içərisində xüsusi fərqlənən böyük Nizaməddin Şəmsizadə sanki dağ kimi ərimişdi. Mənimlə çox mehriban görüşdü. Heç nə olmayıbmış kimi nikbin söhbət açdı. Hətta belə bir həssas məqamda da çox dəyərli, maraqlı, müdrik fikirlər söylədi. Onun simasına baxanda düşündüm: Gör hələ bu insanın varlığında nə qədər zəngin ehtiyat varmış...

Bir qədər əvvələ qayıdıram. 2017-ci ildə mən götürdüyüm mövzunu dissertasiya işi kimi müdafiə etdim. Müdafiə çox uğurlu keçdi. Demək olar əsaslı bir tənqidi qeyd olmadı. Verilən suallara da yetərincə cavab verdim. Məni təbrik edənlərə, haqqımda çox söz deyənlərə cavab nitqimdə bildirdim ki, bu xoş sözlər daha çox mənim elmi rəhbərimə aiddir.

Doğrudur, 2018-ci ildə tədqiqat sahəmdə bir qədər dəyişiklik oldu. Mən akademiyanın Dünya Ədəbiyyatı şöbəsinə gəldim. Doktorluq mövzum isə belə oldu: «Azərbaycan-Belarus ədəbi əlaqələri». Bu gün də yeni tədqiqatlarımda N.Şəmsizadənin elmi düşüncəsindən və yaradıcılığından bəhrələnməyim öz təsirini göstərib. Mövzumla əlaqədar iki antologiya tərtib etmişəm və bir ensiklopedik məlumat tərtibatının müəllifiyəm.

Maraqlıdır, deyirlər ki, hər bir poetik əsər müəllifin özünün mənəvi dünyasına güzgü tutur. Düşünürəm ki, əsl sənət əsəri odur hər kəs özünü orada görə bilsin. Mən də elə təqdim etdiyim bəndlər əsasında deyərdim ki, sanki bu şeirin bütün mahiyyəti mən kiməm deyib özünün kimliyinə güvənən obrazın mahiyyətini ehtiva edir. Həmin misralarda mən N.Şəmsizadənin obrazını çox aydınlığı ilə görürəm. Doğrudan-doğruya qələm tutan çox olsa da, həyatı üçün sözü kredo bilən az tapılar. Elə N.Şəmsizadə kimi sözün oduna, alovuna, közünə tutuşaraq gedənlər də çox olmaz.

Bəli, N.Şəmsizadə öz xalqına, millətimizin mənəvi dəyərlərinə çox sədaqətli bir şəxsiyyət idi. Onun bədii əsərlərini, azərbaycançılıq traktını məhz vətənə bu sevgi araya-ərsəyə gətirmişdi.

Əlbəttə, «Mən kiməm» rədifi ilə çoxlarının poetik əsəri var. «Mən kiməm» xatirə-kitabı da N.Şəmsizadənin kimliyinə güzgü tutan əsərdir. Baxmayaraq ki, xatirə-düşüncələr əsəridir. Amma həmin kitabın özü də sanki başdan-başa poeziyadır.

N.Şəmsizadə sözünü insanlar üçün, cəmiyyət üçün ən əziz yadigar bilirdi. Hərdən söz düşəndə deyirdi ki, mənim xalqıma yazdıqlarım ən əziz əmanətimdir. Onun müdrik kəlamlarının toplandığı kitab özü də bu gün əllərdə gəzir, məclislərdə natiqlərin istinad mənbəyinə çevrilir.

# UCA İNSAN, BÖYÜK ALİM

## *Ustadım, elmi rəhbərim, Əməkdar elm xadimi, professor N.Şəmsizadə haqqında xatirə düşüncələrim*

gə cavab verəsən? O da qətiyyətlə bildirib: - Bəli, çox vacibdi. Mən bilirəm, mənim aspirantım vacib olmasa, mənə zəng etməz, mən də cavab verməsən, onun ümidi qırılar.

Sonralar bu məlumatı eşitdim və bir daha anladım ki, mənim elmi rəhbərim necə böyük şəxiyyətdir.

Bütün zənglərimə həssaslıqla cavab verirdi. Qoyduğum sualları sadə, çox məntiqi əsaslandırılmış və dərin mülahizələrlə cavablandırırdı.

Son vaxtlar səhhətində problemlər yaranmışdı. Ancaq heç vaxt şikayətlənmir, bir qədər də reallıqla desəm, qətiyyən ağlayıb-sızlamırdı. Kimsə onun əhvalını soruşanda və məcbur olub nəyisə izah edəndə sözünün axırını belə bitirirdi. Görək, qəza, qədər nə göstərəcək.

Nizaməddin Şəmsizadənin ayrı-ayrı məqamlarda təbiətini müşahidə etmək imkanım olub. İş yerinə gedirdim, hətta mühazirələrində də müşahidəçi olmuşam. Tələbələrlə qətiyyən sərt müəllim-tələbə münasibəti saxlamırdı. Sanki öz tələbələri ilə doğmaları kimi davranırdı. Kim harda istəsə, ona yaxınlaşa bilirdi. Birmənalı deyə bilərəm ki, iş yerində xüsusi nüfuza malik idi. Onunla hesablaşırdılar. Hər hansı bir mübahisəli məsələni ona gənəşirdilər və bildirdiyi qənaət son nəticə kimi qəbul olunurdu. Bəli, mən onu uzun illər çalışdığı Mədəniyyət və İncəsənt Universitetində belə gördüm.

Onun ailə mühitini də görmüşəm. Ona necə qayğı göstərildiyinin şahidi olmuşam. Şübhəsiz, belə mehriban mühitdə övladların ağılla, kamalla böyüməsi, tərbiyəli olması qanunauyğun nəticədir. Hərdən mətbuatda Fidanın, Ayfərin yazılarını oxuyuram. Ata-ana düşüncəsindən gələn söz sevgisi bu gənclərin yazılarında açıq-aydın görünür.

Deyirlər ki, insanın əsas missiyası cəmiyyətə ağıllı övladlar bəxş etməkdir. N.Şəmsizadə nə qədər elmi ilə cəmiyyətə xidmət göstəribsə, bir o qədər də şəxsiyyəti ilə örnək olub. Alim və şəxsiyyət olaraq övladlarını da cəmiyyət üçün faydalı vətəndaşlar kimi böyütməyə çalışıb və buna nail olub.

Bir dəfə evində ona baş çəkməyə getmişdim. Xəstəlik - özü də çox amansız xəstəlik onun var-



Az qala unutmuşdum, son vaxtlar evində qonaq olarkən yenə də onun kitaba, sözə sonsuz hörmət və ehtiramını müşahidə etdim. Ağır xəstəliyin caynağında iztirablar və ağrılar çəksə də, sözün, ədəbiyyatın insan mənəviyyatı üçün nə demək olduğunu maraqlı detallarla izah edirdi. Mənə elə gəldi ki, o, ədəbiyyatla, söz sənəti ilə bağlı vəsiyyətlərini dilə gətirir. İndi də onun işığı öləziməyən gözləri sözə sevdalı münasibətini ehtiva edən düşüncələri yaddaşımdan silinib getmir.

Söhbətin sonunda iki kitabını mənə bağışladı. «Ədəbiyyat nəzəriyyəsi» və «Mən kiməm» xatirə kitabı.

Bu yaxınlarda «Kredo» qəzetinin birinci səhifəsində Ə.R.Xələflinin «Mən kiməm» adlı çox dəyərli bir poetik əsərini oxudum. Həmin şeirdən iki bəndi diqqətə çəkirəm:

Qələm tutan çox olsa da, az tapılar söz yollu,
Az tapılar mənim kimi... hanı indi köz yollu.
Axtar, ara, taparsanmı bir kimsəni düz yollu.
Görmüsənmi mənim kimi etibarda, mən kiməm?

Söz sinəmdə saçaq-saçaq dənə dolmuş sünbüldü,
İlham pərim başım üstə bir nəğməli bülbüldü;
İlk sevgidən üzü bəri duyğularım gül-güldü,
Öz əhdimlə sınanmışam dostda, yarda, mən kiməm?

Mənim əziz elmi rəhbərim, ustadım Nizaməddin Şəmsizadənin həmin avtoqraflı kitablarını əziz yadigarlar kimi qoruyub saxlayıram.

...Xoşbəxt o kəsdir ki, öz yazdıqları ilə mənsub olduğu xalqın yaddaşında yaşamaq haqqı alır.

Nizaməddin uca insan idi. Bu bənzətmə hər iki mənada ona yaraşırdı. O, böyük alim idi. Ucalığı ilə alimliyi onun şəxsiyyət möhtəşəmliyini təmin edirdi.

Gələcək nəsillər onu bundan sonra daha dərindən öyrənəcək, yaradıcılığını tədqiq edəcəklər. Bütün varlığı ilə sözə, sənətə bağlı olan Nizaməddin Şəmsizadə unudulmaz panteonunda özünə əbədi yer seçib.

Bir daha deyirəm, onu zaman bizdən ayıra bilər. Amma ruhunu və mənəvi mühitini bəxş etdiyi yaradıcılığı həmişə xalğımızla birgə olacaq.

Ustadın ruhu şad olsun!

***06.02.2026***